# "ZƏFƏR YOLUNDA"

## *Tarixin ölməz şahidləri haqqında salnamə-abidə...*



*Əli Rza XƏLƏFLİ*

Əbədiyyətə ünvanlanmış kitabın əlyazma (bilgisayar) nüsxəsini vərəqləyirəm.

Vərəqlər üzərində ömür çiçəkləri kimi açılmış yazılardan baxan oğulların gözləri ilə müharibə odlarını, alovlarını seyr edirəm. Bəli, bir var odalovun içində olasan, bir də var oddan, alovdan sonra ürəklərdə, sinələrdə korun-korun yanan ocaqların közlərinə baxasan.

Bəli, bir var odun içində yanasan, bir də var gözlərinlə yanan ocağın közü ilə yanasan. Bu, gözlərinlə yanmaqdır, bu gözlərinlə od götürməkdir.

Kitabın adı: "Zəfər yolunda" - Müəlliflər İsmayıl İmanzadə və Tariyel Abbaslı.

Hər iki müəllifi kifayət qədər tanıyıram. Həm ədəbi şəxsiyyət, həm də müasirim olan ziyalılar kimi...

Azərbaycan tarixinin son qərinəlik köçü bütün ağrısı-acısı ilə bu kitabı araya-ərsəyə gətirən müəlliflərin varlığından keçib. İsmayıl İmanzadə və Tariyel Abbaslının yazı birliyi - birlikdə işləmək təcrübəsi də kifayət qədər zaman yolu keçib. Onlar Birinci Qarabağ savaşının dəhşətləri ilə üz-üzə gəlmiş və şəhidliyi bir şərbət olaraq içmiş oğullar haqqında "Qəm leysanı" adıyla kədər dastanı yazıblar. Və bu gün İkinci Qarabağ savaşının qələbə sevincləri içində yaşayan kədərimizi sözə gətirmək də birinci elə onların missiyası olmuşdur.

Ümumi qaydaya əsasən, gərək müəlliflər haqqında ümumi məlumat verim. Ancaq Vətənin xilası naminə can vermiş oğulların ruhları qarşısında düşüncəmiz bizi daha çox təvazöyə çəkir. Yenə də olsun; İsmayıl İmanzadə dövrümüzün görkəmli şair-publisistidir, Tariyel Abbaslı filologiya üzrə fəlsəfə doktorudur. Hər ikisi çoxlu kitabların müəllifidir. Bir sözlə, sözün qoxusunu yeddi qat altından belə çəkə bilir. Sözün məna dəyərini üzə çıxarmağı ədəbi təcrübə ilə coxdan mənimsəyiblər. Demək, böyük Azərbaycan tarixinin çox önəmli bir hissəsi olaraq adları Cəbrayılla bağlı olan igidlərin şəhidliyə aparan mərdanəlik yolunu onlar can yanğısı ilə qələmə gətirə biliblər. Və kitabı vərəqlədikcə bu qənaətimin nə qədər doğru olduğunu söz özü mənə deyir.

Mərdanəlik, igidlik mənası daşıyan «ərən» sözünü biz daha çox tariximizlə bağlı işlədirik. Əgər bu gün Qarabağ müharibəsi qalibiyyətlə başa çatıbsa və torpağı işğalçılardan azad etmək Azərbaycan ordusunun şərəf salnaməsinə çevrilibsə, onda, bu müharibənin qəhrəmanları da artıq tarixi obrazlardır. Və onlar Azərbaycan tarixinin ölməz, əbədi qəhrəmanları ilə artıq bir cərgədədirlər. Özləri əbədi gənc qalsalar da, adları ərənlik titulu ilə şərəflənir, gələcək nəsillər üçün hünər dağına çevrilirlər.

Müəlliflər şəhidlərimizi «ərənlər» adlandırır və haqlı olaraq öz düşüncələrini bu titulun gətirdiyi düşüncə axını ilə süsləyirlər.

Haqlı olaraq müəlliflər yurdunu sevənləri ölməzlər sırasında görürlər, hər igidin doğma yurdda çiçək açacaq arzularını vəsf edirlər. Müəlliflərin düşüncəsinə görə, zəfərin ilkin xəbəri məram-məkanına sancılmış bayraqla gəlir. Harda bayraq dalğalanırsa, o bayrağın boyunu sevən qəhrəmanın nəinki özünü, həttə şəklini görməsək belə, obrazını bütün aydınlığı ilə təsəvvür edə bilirik.

Şəhid dastanını yazmaq, şəhidlər haqqında salnamə-abidə yaratmaq kimsəyə asan gəlməsin. Bunun üçün gərək şəhid anasının qürurlu baxışlarından yağan yağışlar altında islanasan və ona "ağlama, şəhid anası" deməyə haqqın olsun. Yalnız bu zaman kağız üzərində sözə çevrilmiş düşüncələrin ürəklərə yol tapa bilər.

Şəhidlik ağrısını ruhu ilə, varlığı ilə daşıyan yazı sahibi Vətənin qan sızan yarasını məlhəm tutan görürsə, onda Vətən yolunda həlak olan oğula: "Şəhadətin mübarək" söyləmək sözün haqqı olduğu kimi, yazı sahibinin də haqqı olur.

Vərəq-vərəq kitab boyu irəliləməklə sanki, əsmər bənizli oğulların od saçan gözləri ilə müharibə odlarından, alovlarından göz qırpmayan ərənlərin tükənməyən həyat eşqini görmək heç də çətin deyil.

Müəlliflərin həyatla nəfəs alan kitabı təkcə qəhrəmanları obraz olaraq xarakterizə eləmir, həm də oxucusunu açıq döyüş səhnələrinə qovuşdurur. Və bu zaman oxucu qəhrəmanın igidliyini görür, dönməzliyini müşahidə edir. Qorxmazlığın son həddi önündə heyrətini gizlətmir. "Şəhidim, əhsən sənə" - deyir.

Hərəsi bir ocaqdan gəlmiş oğulların tərəkəmə elli olmağı, dağlı, aranlı ünvan daşımağı şərt deyil, şərt odur ki, onların hər biri üçün bütün məramlardan, bütün təmənnalardan öncə gələn Vətən anlamı var. Çünki şərəf zirvəsinə can atmaq, bu zirvəni bütün varlığı ilə istəmək, ona sevgi ilə qovuşmaq özü də hünərdir. Yalnız bu hünərin sahibləri sayəsində «sağalır yaran, Vətən», - deyirik.

Müəlliflər yeri gəldikcə düşüncə imkanları ilə şəhidlərin tale yolunu söz ağrısı ilə izləyir. Bu ağrını izlədikcə sanki hər bir qəhrəman üçün ayrıca güvənc yeri kimi ona üz tuturlar. Və beləliklə, haqlı olaraq öz sözlərini "Vətən sənə oğul dedi" hökmüylə yazılarında əks-sədaya çevirirlər. Düşünürəm ki, bu məqamı da müəlliflər kitabda qədərincə ehtiva ediblər.

Janr baxımından kitaba toplanmış hər bir əsər publisistik essenin dəyərli nümunəsidir. Təsadüfi deyil ki, ayrı-ayrı yazıların məğzi, mahiyyəti eyni olsa da yanaşma müxtəlifdir. Yeri gəldikcə, müəlliflər Azərbaycan ədəbiyyatından, xüsusilə, poeziyamızdan gələn poetik ifadələrdən də uğurla yararlanırlar.

"Ana oğul böyütdü" poetik ifadəsinin məna yükünü bundan sonra gələn yazı öz içərisinə alır, sanki məna estafeti davam edir: ölümsüzlüyün əbədiyyət zirvəsinə doğru. Müəlliflər qəhrəmanlara deyə bildikləri hər sözdə inamlıdırlar, hər vəddə dayanıqlıdırlar. Qəhrəmanın ünvanına "Vətən səni unutmayacaq" deyirlərsə, demək, bunun üçün kifayət qədər əsasları var. Axı bu qəhrəmanların hər biri ayrılıqda Allahın sevimli bəndəsidir. Allahın sevimli bəndəsini Allah özü unutmursa, bəndə necə unuda bilər?!.

Yazı sahibləri onu da yaxşı bilir ki, əsl yazını, tarixi - Vətən uğrunda şəhid olanlar yazıblar, yaradıblar. Əgər belə demək mümkünsə, onlar bu "yazını" yazıya gətirir, kağıza köçürürlər.

Bütün sevgilərin mahiyyəti fədakarlıqla bağlıdır. Fədakarlıq yoxdursa, sevgidə də tamlıq yoxdur. Silahı ilə Vətəni qorumağı özünə ideal bilən hər kəs bu idealın şəhidlik ucalığına qalxanda kama çatır.

Oğulların, qardaşların, ataların, nəvələrin... bir atanın belindən, bir ananın bətnindən dünyaya gələn hər kəsin doğmalıq, güvənc yeri yenə yurddur, yenə Vətəndir.

Xarakteri insan təbiətini bəzən bütöv ömrə bərabər olan məqamlar yaradır. Zənnimcə, müəlliflər "çətin yolda rəqib az olur" deyəndə elə bu məqamı diqqətə çəkmək istəyiblər.

Müharibənin sona çatmasından çox vaxt keçməyib. Amma bu ötən vaxtın özü də qürurlu düşüncələr üçün kifayət qədər meydan açır. Şübhəsiz, bu meydanda çox vaxt biz xatirələri qorlanan, tüstülənən, yanan ocaqlar kimi görürük.




Azərbaycanın şəhid oğulları və bu oğullar sırasında Cəbrayıl elini təmsil edənlər də ölümdən güclü olduqlarını sübut etdilər. Onlar ölümü cəsarətli baxışları ilə yendilər. Bəlkə də, bu həqiqətin özü «ölüm hələ son deyil» həqiqətidir. Ona görə də şəhid olan qəhrəmanın son məqamına doğru yolunda «şəhid olmağa gedirəm» - deməyinə inanmaya bilmərik. Elə bu inamla da onların hər birini özlərinin əbədiyyət məkanında salamlayır, «ürəklərdə yerin qaldı, şəhidim», «hər birimizin qəlbində yeriniz var» - deməyimizlə sizi yox, özümüzü ovuduruq.

«Beyləqandan gələn soraq» adlı bir yazı da diqqətimi çəkir. Və düşüncəmdə bu adı dəyişirəm; «Suqovuşandan gələn soraq», «Cəbrayıldan gələn xəbər», «Zəngilandan gələn səs»... kimi bütün bunlar indiki məqamda mənim və demək, oxucunun ruhundan keçir Kəlbəcər dağlarında, Laçın yollarında, Şuşa keçilməzliklərində əkssəda verir.

Hər bir əsgər üçün düşməndən azad olunan torpaq yurd vüsalına qovuşmaqdır. Kitab boyu qəhrəmanların düşüncəsini özündə ehtiva edən yazılardan gələn duyğu ilə «Qarabağın görüşünə gəlmişəm» səsi bizi qürurlandırır. Çünki bu səsin, bu görüş ahənginin memarı əsl qəhrəman idi.

Qarabağ dirçələr, Qarabağ yenidən boy atar; bütün əzəmətilə gələcək nəsillərin qürur yerinə çevrilər. Şəhid məzarlarını sakit, susmuş duyğularımızla danışdırar, «burda bir şəhid yatır»... xəbərini nəzərimizlə, bizi bizdən keçib gedən insanların elə səssiz sorğusuna cavab kimi ruhumuzla çatdırarıq.

Müharibədə hər cür töhmətlərə layiq idbarlıqla məğlub olan düşmən igidlərimizin qəhrəmanlığı üzərinə kölgə salmağa çalışdı. Amma biz gördük ki, bu qəhrəmanların hər biri eldən gəlir, yurddan gəlir. Çünki onların hər biri Vətən sevdası ilə cürət, cəsarət silahına sahiblənmişdilər. Onlar düşmən bağrı çatladan oğullar idi.

Vətən yolunda özünü qurban vermiş oğulların müharibəsiz dünyada ömürləri davam etsəydi çox arzuları göyərər, bitərdi. Bu mənada müəlliflər qəhrəmanların əvəzindən «deyiləsi çox sözüm vardı» deyirlərsə, haqlıdırlar. Vətənin bütövlüyü uğrunda vuruşan hər bir əsgərin ölümsüzlüyü gələcək nəsillər üçün igidlik yoludur, ölməzliyin nə demək olduğuna ən dəyərli örnəkdir.

Qarabağ böyük dastanın məkanıdır, yeridir, yurdudur. Bu dastanın qəhrəmanları cismani ömürlərini Laçında, Kəlbəcərdə, Şuşada, Suqovuşanda,... daha harda... sona çatdırıblar... bunun dəxli yoxdur, onların qan verdiyi, can verdiyi hər məkan gələcək nəsillər üçün ocaq olacaq, pir olacaq, ziyarət yeri olacaq. Çünki onların hər birində Vətəni ideal sayıb yolunda qurban getməyi özünə borc bilən hər kəsdə ölümdən güclü olan Vətən eşqi vardı. Azad olunan hər parça torpaq, azad olunan hər qaya, hər daş zəfər müjdəli döyüşdən nişanədir.

Bu da bir ağrı kitabı.

Kitabın son səhifələrini də çevirirəm. Hər bir qəhrəmanın döyüş, hünər yoluna işıq tutan yazıları təzədən düşüncəmdən keçirirəm. Adları çəkmədim, bilərəkdən çəkmədim. Fərqləndirmək, ayırmaq istəmədim; onların işıqlı, parlaq obrazlarını oxucu gözü ilə gördüm. Təbiətlərini ruhuma yığdım. Gözümün önündə işğaldan azad olunan Vətənin hər qayası, hər daşı bir igid heykəlinə çevrildi.

"Zəfər yolunda" kitabı... Zəfər yolunun can fədailəri haqqında kitabı... cəfakeş müəlliflərin tarixin ölməz şahidləri haqqında salnamə-abidəsidir. Şəhidləri demədim, onsuz da Vətən yolunda can vermiş hər bir qəhrəman - şəhid tarix yolunun əbədiyaşarı şahididir.

Bu kitab gələcək nəsillər üçün sözün birbaşa mənasında Vətən dərsliyidir, qəhrəmanlıq dərsliyidir. Bir sözlə, müəlliflərə minnətdarlıqla təkrar etməyə dəyər: Tariximizin salnamə-abidəsidir.

*27.04.2021*